DOI: 10.36719/2663-4619/60/147-150

**Gülşən Bahadur qızı Kərimova**
**Şəhla Zahid qızı Səfərova**
Bakı Dövlət Universiteti

# "KRAL MÜQƏDDƏS LÜDOVİK KÖRPÜSÜ" ƏSƏRİNDƏ MƏNƏVİ BÖHRAN, ŞƏXSİYYƏT VƏ SƏNƏT PROBLEMİ

***Açar sözlər:*** *həyat həqiqətləri, insanlar arası münasibətlər, özgələşmə, cəmiyyət, qadın, özünüsevərlik selfishness*

## Moral Crisis, the Problems of Personality and Art in the Novel "The Bridge of San Luis Rey”

**Summary**

The article is dedicated to the embodiment of the phenomenon of alienation in the twentieth century.The author fully understands the responsibility of the subject to which he addresses, and clearly sees the danger that alienation really poses to the very existence of human society. However, what distinguishes the American writer from other writers would emerge as a process that would inevitably lead to the destruction of mankind.

***Keywords:*** realities of life, interpersonal relationships, alienation, society, women, selfishness

Kral Müqəddəs Lüdovik körpüsünün dağılması ilə bağlı məhv olanlardan biri də yeri-yurdu məlum olmayan, heç bir məkanda qərar tuta bilməyən sərgərdan ziyalı Piodur. O, İspaniya cəmiyyətində çox görkəmli mövqe tutan Kastiliya nəslinə mənsub aristokrat ailəsində dünyaya göz açmışdır. Lakin Pio lap anadan olandan cəmiyyətdə xüsusilə yüksək ispan aristokrat təbəqəsində autsayder rolun oynamağa məhkum olunmuşdur: bədbəxt uşaq məşhur aristokratın qeyri-qanuni oğludur, Madriddə seçilib-sayılan nəslin qeyri-qanuni nümayəndəsidir.

Dünyanı dərk edən məqamdan Pionun qarşısında iki yol açılır: o ya gərək qeyri-qanuni doğumu statusunun rəsmi şəkildə olmasa da, qeyri rəsmi ləğvinə nail olub, mənsub olduğu zadəgan cəmiyyətdə mövqe qazanaydı, ya da qeyri- qanuniliyini, autsayderliyini qəbul edib öz statusuna müvafıq şəkildə hərəkət edəydi. Pio ikinci yolu seçir: on yaşı başa çatar-çatmaz o, atasının Madriddəki asyendosindən (mülkündən) qaçır. Pio könüllü şəkildə yarıya qədər mənsub olduğu təbəqədən təbii özgələşməni total özgələşməyə çevirir: şəxsiyyətin insanlardan və cəmiyyətin insandan bir-birinə qarşılıqlı inamsızlığı zəminində həmişəlik təcrid olunmasının ən birbaşa yoluna - fırıldaqçılıq istiqamətinə qədəm qoyur. Əvvəl-axır, üstü açılan və nəticədə insanlarla cəmiyyət arasında yaranmış bütün münasibətlərin qırılmasına səbəb olan fırıldaqçılıq şəxsiyyət üçün cəmiyyətdə autsayder mövqeyi tutmağa, cəmiyyətin gündəlik həll etdiyi problemlərin fövqündə dayanmağa, cəmiyyətdə sərbəst, azad mövqe tutmağa imkan yaradır.

Lakin yer üzündə heç bir məkanda qərar tuta bilməyən, tez-tez sənətini dəyişən, cəmiyyətin bütün təbəqələrinin nümayəndələri ilə çox asanlıqla dil tapıb ünsiyyətə girə bilən Pio hərəkətlərilə bir tərəfdən daim insanlarla yalançı ünsiyyətə girməyə çalışır. Lakin bu fərdi əlaqələr nə emosional, nə də intellektual cəhətdən cəmiyyətə bağlanmaq iqtidarında olmayan Pionun özgələşməsi prosesini daha da dərinləşdirir, ona dönməz xarakter aşılayır.

Beləliklə, Pionun özgələşməsinin və bu prosesin dərinləşməsinin səbəbkarı ilk növbədə cəmiyyət, onu nizamlayan qanunlardır. Sənətkar sövqi-təbiisi ilə Pionun düşdüyü vəziyyəti başa düşən markiza de Montemayor qızı Klaraya məktubunda Pionu belə xarakterizə edir:

“Mən şübhə edirəm ki, Sakit okeanın bütün suları onu əvvəlki təmizliyə və xoşrahiyəliyə qədər yumağa kifayət etsin. Amma gəl gör ispan dili onun dodaqlarında necə ilahi səslənir və nə qədər incə düşüncələri ifadə edir...

Təəssüflər olsun! Görəsən, bu dünyada nə qəza baş vermişdir ki, o bu cür məxluqla belə pis rəftar edir? Onun gözləri onuncu buzovu əlindən alınmış inəyin gözləri kimi qəmgindir" (78, s.70)

Təxminən 20 yaşında Pionun bütün aydınlığı ilə dərk etdiyi həyatının üç məqsədi isə onun bir tərəfdən cəmiyyətdən aralanmaq, sosial problemlərin fövqündə dayanmaq, digər tərəfdən isə insanlarla arasında yaranmış özgələşmə uçurumunu dəf etmək cəhdi ilə bağlıdır. Hər şeydən əvvəl Pio dayı sərbəstlik arzusu ilə etdiyi bütün hərəkətləri, törətdiyi bütün əməlləri onun fərdi iradəsinin ifadəsi kimi diqqəti cəlb edir. Lakin bu sərbəstliyə can atmaq tendensiyası onda dünyanın, cəmiyyətin rastlaşdığı hər bir şəxsin bütün sirlərindən agah olmaq arzusu forması kəsb edir. Belə ki, o, insanları uzaqdan və onlardan yüksəkdə duraraq müşahidə

etmək naminə cəmiyyət tərəfindən onun şəxsiyyətinə ifadə olunan, bəslənən hər cür hörmət və ehtiramdan imtina etməyə hazır idi.

İkincisi, o, həmişə gözəl xanıların yanında olmağa, onların ətrafında dolaşmağa, onlarla həmdəm olmağa can atırdı. Əlbəttə ki, bu seyrək saqqalı, seyrək bığlı, gülməli qəmgin gözləri olan eybəcər kişi gözəl aristokrat qadınların məhəbbətini qazanmaq arzusunda deyildi və buna heç can da atmırdı. Bəs onda görəsən Pio dayı nə üçün bu qadınların dərdinə şərik olur, tam onlardan üz döndərəndə ən sadiq məşuqdan da artıq onlara sadiq qalır, onların nazı ilə oynayır, bu xanımlar qocalıb bütün cazibədarlıqlarını itirəndə onlar üçün çox gərəkli olan keçmiş gözəllikləri haqqında xatirə rolunu oynayır, dünyalarını dəyişəndə isə, o, səmimi şəkildə yasa batırdı?

Görünür, özgələşmənin fəsadları ilə yaxşı tanış olmuş Pio bütün bəşər tarixi boyu demək olar ki, bütün sivilizasiyalarda, ictimai münasibətlər sistemində həmişə sosial təzyiqə məruz qalan, daim hüquqları pozulan və faktiki olaraq permanent şəklində özgələşməyə məruz qalan qadınların ruhən ona yaxın olduğunu sövqi-təbii ilə hiss edir.

Üçüncüsü, o, bütün varlığı ilə ispan ədəbiyyatının, xüsusilə ispan teatrının pərəstişkarı idi və özü də şair olmaq arzusu ilə alışıb-yanırdı.

Pio dayının həyatdakı hər üç məqsədi onu cəmiyyətdən kənarda, ətrafda baş verən hadisələrin kontekstindən qıraqda yaşamaq iqtidarında deyil, lakin digər tərəfdən də insanlarla hərtərəfli, mükəmməl münasibətlər qura bilmir. Məhz bu iki meyl arasında vurnuxub çırpınan Pio dayı həm ona cəmiyyətin fövqündə, həm cəmiyyətdən kənarda dayanmağa imkan verən mövqe tutmaq istəyir, həm də insanların problemlərinin bütün incəlikləri ilə tanış olmaq arzusu ürəyindən keçir.

Pio dayının həmdəm kimi, sirdaş kimi kişilərdən daha çox qadınlara meyl etməsi onun birinci məqsədi ilə sıx bağlıdır. Axı, qadınlar da cəmiyyətdəki mövqeləri etibarilə Pio dayı kimi labüd şəkildə təbii özgələşməyə məruz qalırlar: onsuz da bir qayda olaraq sosial həyatda qeyri-fəal mövqe tutan qadın ərə getdikdən sonra öz ailəsinin problemləri hüdudlarında qapanıb qalır və cəmiyyətin qaynar həyatından təcrid olunur. Pio dayının və qadının cəmiyyətdən təcrid olunması özgələşmənin diametral şəkildə bir-birindən fərqlənən iki tipidir: Pio dayı faktiki olaraq özü könüllü şəkildə cəmiyyətlə bütün əlaqələrini qırır və ondan aralanır, halbuki, qadın qeyri-könüllü, lakin labüd şəkildə get-gedə cəmiyyətə, daha doğrusu, onun ən kiçik vahidi olan ailəyə həddindən artıq dərin inteqrasiya etdiyinə görə, özgələşməyə məruz qalır. Lakin nəticə eynidir və Pio dayı ilə qadınların mənəvi-ruhi əhval-ruhiyyəsi bir çox cəhətdən bir-birinə bənzəyir. Bizə elə gəlir ki, Pio dayının qadınlara meyli də məhz bununla bağlıdır.

Obyektiv aləmin subeyktiv inikası olan ədəbiyyat Tornton Uaylderin fikrincə, əslində yazıçı tərəfindən yaradılmış, xarici dünya ilə heç bir əlaqəsi olmayan illüzor aləmdir. Dekorasiyaları ilə, aktyor oyunu ilə gerçəklikdən, real aləmdən özgələşmiş bir aləm təsiri bağışlayır və məhz bu baxımdan teatr Pio dayının diqqətini cəlb edir.

Uzun sərgüzəştlərdən sonra Peruda yurd-yuva salmağa nail olmuş Pio nəhayət üç məqsəd - arzusunu da bir şəxsin simasında birləşdirib gerçəkləşdirməyə nail olur. O, Limanın kafelərindən birində müştəriləri öz mahnıları ilə əyləndirən on iki yaşlı bir qızla rastlaşır. Qız kafedə Kamila Perikola adı altında tanınır. Günlərin birində Pio dayıda Piqmalion olmaq - daha təcrübəli xanəndə qadınları təqlid edən Kamilanı əsl sənətkara çevirmək fikri doğur və Pio dayı hər gün döyülən, təhqir olunan balaca Kamilanı yanına götürür, ona normal məişət şəraiti yaradır, onun üçün mahnılar bəstələyir, onu müğənnilik sənətinin sirlərindən agah edir. Kamilada həm fiziki, həm də sənətkarlıq baxımından baş verən metamorfoza Pio dayını heyrətə gətirir. Kamila Perikola çəlimsiz qızcığazdan son dərəcə gözəl və cazibədar gənc qadına çevrilməklə yanaşı, həm də aktyorluğun bütün sirlərinə yiyələnib görkəmli sənətkar kimi yetişir.

Piqmalion fenomeni, yəni ilk baxışdan heç bir gözəgəlimli cəhəti olmayan bir məxluqun hərtərəfli şəkildə inkişaf etmiş, bütün mənəvi, ruhani və intellektual potensiyaları gerçəkləşmiş şəxsiyyətə çevrilməsində bu və ya digər səbəbdən cəmiyyətdən, onun üst qurumlarından təcrid olunmuş bir insanın heç olmasa, qismən sosial dəyərləri qavraması ilə izah olunmuşdur. Kamila Perikola da Pio dayı ilə tanış olmaqla bir növ onun simasında simvolik şəkildə cəmiyyətə yol tapır, teatr sənətinin sirlərindən agah olmaqla bəşər nəslinin əsrlər boyu əldə etdiyi estetik dəyərlərə qovuşur.

Düzdür, sonralar məlum olur ki, Kamila Perikolanin Pio vasitəsilə integrasiyası illuzor bir hadisə imiş axı Pio da cəmiyəttdən təcrid imiş. Lakin ilkin təkan öz bəhrəsini verir.

Pio dayı qızcığazı öz mənəvi və intellektual orbitinə cəlb etməklə bir növ varlığına cəlb etməklə bir növ varlığına hakim kəsilmiş özgələşməni dəf etmək istəyir. Lakin Pio dayı Kamilanı özünə yaxınlaşdırmaqla sadəcə özgələşmənin yayıldığı məkanı genişləndirməyə, deməli, özgələşmənin ona aşıladığı hissləri və emosiyaları yumşaltmağa nail olur.

İlk dövrlərdə Pio dayı tərəfindən qəyyumluğa götürülən Kamila özünü çox yaxşı hiss edir: axı, indi o, boş şərab çəlləyinin içində yox, öz çarpayısında yatır, indi onu döymürlər, üstəlik isti yemək verirlər, qızcığaz sənətinin sirlərini öyrənmək imkanı əldə edir.

Lakin özü özgələşməyə məruz qalmış Pio dayı Kamilanı cəmiyyətdən total təcriddən qurtarmaq iqtidarına malik deyil. Tez bir zamanda bütün Peruda ən məşhur aktrisaya çevrilən Kamilla Perikola paradoksal şəkildə get-gedə daim ətrafında dolanan, hər bir dərd-qəmini bölüşdürməyə hazır olan Pio dayıdan da, onun hər dəfə səhnəyə çıxışını ardı-arası kəsilməz, sürəkli alqışlarla qarşılayan pərəstişkarlarından da, öz sənətindən də özgələşir. Kamilanın Perunun vitse-kralı ilə münasibəti məhz bu özgələşmə ilə müəyyənləşir.

Pio dayı ilə Perikolanın bir-birinə yaxınlaşmasının ruhən, qəlbən bir-birinə doğma adamların rastlaşması və dostlaşması kimi nəzərdən keçirmək olmaz. Düzdür, bər cəhət onları birləşdirir: Pio dayı da Kamila Perikola da özünüsevərlik xəstəliyinə tutulmuşlar. Lakin Pio dayıda özünüsevərlik ona qarşı ədalətsiz rəftar etmiş, onun dünyaya gəlməsini qanuniləşdirməmiş dünyaya qarşı üsyan formasıdırsa, yəni özünüsevərlikdən daha çox başqa şəxsin,daha konkret desək, Kamila Perikolanın simasında özünütəstiq kimi bürüzə verirsə, yetim qız üçün özünüsevərliyə düçar olmaq dünyada bioloji cəhətdən məhv olmamaq vasitəsidir. Məhz buna görə də müxtəlif çalarlı özünüsevərliyə qapılmış adamların bir-birilə uyuşmaları qeyri-mümkün olur: “Pio öz şəxsində tapa bilmədiyi keyfiyyətləri Kamila Perikolada axtarmaqla, özünü bu qadında təstiq etməyə çalışır. Bu özünüsevərliyin filosoflar tərəfindən təstiq olunmamış, lakin gerçəklikdə geniş yayılmış bir formasıdır. Belə ki, dünya ədəbiyyatı tarixində ilk dəfə özünüsevərlik fenomenini təsvir edən Ovidi bunu insanın dünyadan təcrid olunması və özünə qapanması kimi təsvir etmişdir”.

XX əsrin görkəmli amerikan filosoflarından birə olan E.Fromm belə hesab edir ki, “hər hansı bir qadına vurulmuş kişi bu məxluq ona məxsus olduğuna görə özünüsevərliyini bu qadına tərəf yönəldir, oıu özünüsevərliyinin obyektinə çevirir. O, vurulduğu qadında özündə təsadüf etdiyi keyfiyyətlərə heyran olur. Sevdiyi qadın məhz ona görə fəvqəladə keyfiyyətə malikdir ki, o, onunla çulğalaşmış, onun tərkib hissəsinə çevrilmişdir. Özünüsevərlik mövqeyində dayanmış bütün adamlara elə gəlir ki, onların malik olduqları şeylər əladır və onlar malik olduqları bütün əşyalara vurulurlar" (18, s. 302).

Beləliklə, E.Fromm Ovidinin özünüsevərlik konsepsiyasının çərçivələrini genişləndirərək onu kişi-qadın münasibətlərinə də, ilk baxışdan özünüsevərliyin inkarı olan başqasına vurulmağa da şamil etmişdir.

E.Frommun bu səmərəli ideyasını inkişaf etdirərək demək olar ki, özünüsevərlik fenomeni valideyn-övlad, yəni övlada sevginin valideyni dünyadan təcrid edib bala hüdudlarında qapanması hadisəsində də, özünütəsdiq naminə başqasına filantropik münasibət formalarında da özünü büruzə verir. Təhlil etdiyimiz əsərdə yazıçı məhz belə bir münasibətlər sistemini təsvir etmişdir.

Kamila Perikolanın özgələşməsi onun çiçək xəstəliyinə tutulması ilə cəmiyyətdən təcrid olunması və tamamilə öz çərçivəsinə qapanması ilə bağlı maksimum həddə çatır. Bir qayda olaraq xəstəlik, insanın qeyri-könüllü şəkildə özünə qapanması "hüdud situasiya" kimi qiymətləndirir və məhz bu tipli situasiyalarda insan özünün əsl mövcudluğu ilə qovuşub özgələşməni dəf edə bilir. Lakin povestdə təsvir olunan Kamila Perikola obrazında baş verən dəyişikliklər bu ümumfəlsəfi məntiqin pozulması ilə nəticələnir və biz qadında təbii bioloji təcrid əsasında özgələşmənin dəf olunması hadisəsi ilə üzləşmirik. Məsələ burasındadır ki, Kamila Perikolada uzun müddət bundan əvvəl başlayan özgələşmə prosesi - incəsənət vasitəsilə insanların qəlbinə yol tapmaq əvəzinə, onlardan təcrid olunması, bütün ömrü boyu yeganə mənəvi dayağı olan Pio dayını özündən uzaqlaşdırması, dünya ilə, cəmiyyətlə efemer formada olsa belə, bağlandığı sənətindən imtina etməsi məntiqi şəkildə Kamilanın düçar olduğu xəstəliyi ilə bağlı daha da dərinləşir, insanı məhv edən dəhşətli bir forma kəsb edir.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, həqiqətən son dərəcə istedadlı aktrisa olmasına baxmayaraq, Kamila Perikola öz sənətini özünün daxilən mənəvi-ruhani baxımdan zənginləşməsi istiqamətinə yönəldə bilməmişdir. Daim Kamilanın sənətinin səthiliyi ilə bağlı narazılığını ifadə edən Pio dayı sövqi-təbii ilə hisse edirdi ki, Kamilanın oynadığı rollar onun daxilən mənəvi-ruhani baxımdan zənginləşməsinə yox, tədricən yoxsullaşmasına gətirib çıxarır.

Kamilanın qadın gözəlliyi haqqında konsepsiyası yalnız xarici cəhətləri ehtiva edir: “Öz gözəlliyi ilə bağlı heyranlığı təbii bir şey kimi qəbul etməyə adət etmiş, bütün qadınlar kimi o (Kamila Perikola – G.K.), belə hesab edir ki, hər bir insanın müsbət münasibəti yalnız gözəlliklə müəyən olunur. İndi isə ona göstərilən hər hansı bir diqqət mərhəmət hissindən törənə bilər. O, həmişə belə hesab edirdi ki, ehtiras – məhəbbətdən başqa məhəbbətin heç bir digər forması mövcud deyil, məhz buna görə də gözəllikdən məhrum olandan sonra heç kimin reğbətini qazanmaq iddiasında olmağa haqqı yoxdur” (78, s.87).

İnsanlararası münasibətlər haqqında belə bir fikir Kamilaya imkan vermir ki, tanışlıqlarının ilk günündən bütün varlığı ilə ona bağlanmış, təmənnasızlığın təcəssümü olan Pio dayının yardımını qəbul etsin.

Kral Müqəddəs Lüdovik körpüsünün dağılması ilə bağlı günahsız insanların məhv olması faktı ilk baxışdan oxucuda qəzavü-qədərin qüdrəti haqqında fikir oyatmağa xidmət edir. Bu, cəmiyyətdən, bir-birindən və hətta özlərindən də özgələşmiş fərdlərin taleyi oxucuda artıq formalaşmış pessimizmin daha da dərinləşməsi məqsədini güdməsi haqqında təsəvvürü yaratmalı idi. Lakin povestdəki bütün personajları bir-birinə calayan və son nəticə etibarilə ən yaxın adamlarını itirmiş, özgələşmə ilə bağlı ümidsizliyin dərin girdabına qərq olmuş Kamila Perikola da, yalnız anasını itirdikdən sonra bütün ömrü boyu öz soyuq münasibəti ilə onu özündən uzaqlaşdıran-özgələşdirən Klara da, gününü ağır xəstəklərlə keçirən, böyüdüb boya-başa çatdırdığı iki ən yaxın adamını – öz yerini tutmağa hazırladığı Pepitanı və oğlu qədər çox istədiyi Estibanı itirmiş, lakin bir an belə ruhdan düşməyən, insanlar üçün canından keçməyə hazır olan qadın monastrının rəhbəri donya Mariyanın timsalında yaşamağın mənasını dərk edirlər.

XX əsrin əsas mənəvi-ruhani və sosial problemi olan özgələşdirməni XVIII əsrə keçirməklə Tornton Uaylder bu problemi metafiziki, zamandan və məkandan kənar bəşəriyyətin labüd şəkildə yoluxduğu qaçılmaz xəstəlik kimi təsvir etməklə yanaşı, bu xəstəliyi dəf etməyin, ona qarşı uğurla mübarizə aparmağın da mümkünlüyünü təstiq edir.

“Kral Müqəddəs Lüdovik köprüsü” povestində elə bir personaj yoxdur ki, o, bu və ya digər şəkildə özgələşmə xəstəliyinə düçar olmasın. Əslində nə markiza, nə Esteban, nə Pepita, nə Perikola, nə donya Mariya öz-özlüklərində fərd kimi özgələşməmişlər. Bu mərəz insanlararası münasibətlərin mahiyyətinə xas olan bir keyfiyyətdir. Bu baxımdan insanlararası münasibətlər povestdə bir növ elektrik cərəyanı buraxılmış naqilləri xatırladır: naqillər – insanlararası münasibətlər də, onların birləşdirdiyi obyektlər – ferdlər də cərəyan altındadırlar.

İlk baxışdan özgələşmənin belə qlobal xarakter kəsb edən hadisə kimi təsviri Tronton Uaylderin bu problemin həllinin mümkünlüyunə pessimist münasibətindən xəbər verməlidir; əgər cəmiyyətin bütün üzvləri zamandan və məkandan asılı olmayaraq özgələşmə xəstəliyinə düçar olmuşlarsa, onların köməyinə gələ biləcək heç bir kənar xarici instansiya mövcud deyildir. Lakin sənətkar bu problemin həlli ilə bağlı heç də pessimizə qapılmır; o, belə hesab edir ki, özgələşmiş insanlar yalnız həmrəylik zəminində, yalnız bir-birlərinə yardım etməklə bıı dəhşətli mərəzi aradan qaldıra bilərlər. Donya Mariyanın faktiki olaraq povestin bütün personajlarına, kapitan Alvarestin Estebana, Pepitanın markiza de Montemayora, Pio dayının Kamila Perikolaya və s. yardımı məhz belə bir xarakterə malikdir.

Əsər, əlbəttə ki, XX əsrdə insanların mənəvi aləmini xərçəng metastazları kimi gəmirən özgələşmə fenomeninin təcəssümünə həsr olunmuşdur. Müəllif müraciət etdiyi mövzunun məsuliyyətini tamamilə dərk edir və özgələşmənin həqiqətən bütün bəşər cəmiyyətinin mövcudluğu üçün təşkil etdiyi təhlükəni açıq görür. Lakin amerikan yazıçısını bu problemi bu və ya başqa şəkildə öz əsərində təcəssüm etdirən digər yazıçılardan fərqləndirən odur ki, digər yazıçılar, məsələn, Y.P.Sartr, A.Kamyü, U.Folkner özgələşməni bəşəriyyətin labüd şəkildə məhv olmasına gətirib çıxaran bir proses kimi üzüağ çıxacağına əminliyini ifadə edir. Bizə elə gəlir ki, həyat yollarının, bilik və intellekt səviyyələrinin, dünyaduyumlarının müxtəlifliyinə baxmayaraq, bir cəhət bütün T.Uaylder qəhrəmanlarını birləşdirir: körpünün dağılması ərəfəsində onların hamısı bu və ya digər şəkildə öz həyat tərzlərində dəyişiklik etməyə, özgələşmədən yaxa qurtarmağa cəhd göstərirdilər.

**Ədəbiyyat**

1. Brubann Rex. Thorn fon Wilder. New York, 1961
2. Papujevski H.Thorn fon Wilder. New York, 1968
3. Wilder T. The Ides of March. Moscow, 1981
4. Кабанова Т. Драматургия Т.Уайдера М., 1984

**Rəyçi: f.f.d. G.Xanbabayeva**

Göndərilib: 28.11.2020 Qəbul edilib: 29.11.2020